## Ramin Məmmədov - 65



# “Mən Rusiyada Azərbaycan axtarırdım”

Başlığa çəkilmiş ifadəni bir də təkrar etməyə dəyər: “Mən Rusiyada Azərbaycan axtarırdım”. Bu sözləri hələ 30 il bundan əvvəl Azərbaycanda və daha çox Rusiyada yazıçı-publisist kimi tanınan Ramin Məmmədov deyirdi. Açığı, az qala bir qərinəyə çatacaq zamanın o başında Raminin bu sözlərinə mən sadəcə bir istək, əsası olmayan bir arzu kimi baxırdım. Axı bu o zaman idi ki, 20 Yanvardan çox uzaqlaşmamışdıq. Üstəlik, Xocalı soyqırımı da bütün göynəmi ilə yaddaşımızı didib-sökürdü.

Gözlər olsun, görməsin, 93-cü ilin dəhşət axınını. Bütün cəbhə boyu ermənilər hücuma keçmişdi. Rusiyanın imperiyapərəst qüvvələrinin köməyi ilə Qarabağ başdan-başa işğala məruz qalmışdı. Elə bil ki, düşmən bütün Qarabağı işğal etməklə Azərbaycanın yaddaş tarixindən, mənəviyyat xəritəsindən Qarabağı silmək istəyirdi.

Ramin Məmmədov - Ramin Hüseyn oğlu Məmmədov mənim həmin günlərimin mənəvi mühitində peyda olan dostum kimi göründü. “Peyda olan” ifadəsini təsadüfi işlətmirəm. Mən Qaradağ rayonuna, Lökbatan qəsəbəsinə gələndə buradakı Qaradağ rayon qəzetində işləməli oldum. Qəzetin baş redaktoru ilk tanışlıqdan mənəvi ucalığına qibtə doğuracaq bir ziyalı xanım idi. Bəli, sonralar yaddaşımın əbədi sakini olacaq Nurlana xanım Telman qızı.

Gəncliyinə baxmayaraq, jurnalistikanın ustadı idi. Sözün yeddi qat dərinliyinəcən mənasını göydə alırdı. Redaktə bacarığı, sözü üyütmə gücünə də söz ola bilməzdi. Məni elə Qaradağ qəzeti redaksiyasında Ramin Məmmədovla elə o tanış etdi.

Bildim ki, Ramin polis işçisidir(forma geyməmişdi). Amma söhbət əsnasında bünövrəli mədəni mühit övladı olduğunu tez anladım. Ən başlıcası, onunla doğmalığıma əsas yaradan vəsilə sözə sevgili münasibəti idi.

İnsanı başa düşmək o qədər də çətin deyil, əlbəttə, başa düşmək istəsən. Mən növbəti görüşlərimizdə artıq başa düşmüşdüm ki, Ramin zirehli mundir altında çox səmimi, humanist bir ürəyi gəzdirir. Onun son dərəcə kövrək, cəmiyyətə, insanlara sevgili münasibətini göstərən bir dünyası var.

Ramin Rusiyadan gəlmişdi. Özü də qəlbinin hökmü ilə gəlmişdi. Və gələn kimi də Qarabağa getmək arzusu ilə təmin olunmuşdu. Bəlkə də aramızda yaranan səmimi ünsiyyətin əsas kökündə elə bu amil bünövrə oldu. Onun xidməti vaxtından (sahə müvəkkili idi) sonra qələmə aldığı yazıları çox diqqətlə oxuyurdum. Bəzən kəskin münasibət bildirirdim. Elə bil ki, psixoloji təcrübə aparırdım. Bilmək istəyirdim ki, o, yazıya nə dərəcədə bağlıdır.

Həyat göstərdi ki, Ramin Hüseynoğlu Məmmədov üçün yazı onun nəinki ikinci həyatı, elə sözün həqiqi mənasında birinci həyatıdır.

Onun ilk kitablarını nəşrə hazırlayan Qəşəm İsabəylinin sözlərini də özü mənə çatdırdı:“Redaktorun kimdirsə, güclüdür. Ona mənim adımdan salam de. Özün də xidməti dövrünü çalış yaxşı ötür, onsuz da sonumuz sözdə qurtarır”. Məni sevindirən odur ki, Ramin Məmmədov bu gün Azərbaycan publissitikasında, sənədli nəsrində kifayət qədər tanınan qələm sahibidir. Hörmətli yazıçıdır- bunlar hamısı öz yerində. Onun çoxlu sayda kitablarını vərəqlədikcə görüşümüzün ilk çağlarındakı manifestini xatırlayıram: “Mən Rusiyada Azərbaycan axtarırdım”.

Bəli, Ramin Məmmədov Rusiyada axtardığını tapıb. Rusiyanın tarixində azərbaycanlıların əvəzsiz və təkzibsiz həqiqətini göstərə bilib.

* * *

Qəbələ rayonunun Bum qəsəbəsində doğulub, Uzaq Sibirdə həyata atılmış, orada təhsil almış və Rusiyanın bir çox qəzetlərində yüzlərlə məqalə, oçerk, publisist yazılar dərc etdirmiş, qəhrəmanlarımızı, məşhurlarımızı, tariximizi, mədəniyyətimizi, Azərbaycan - Qarabağ həqiqətlərini qonşu ölkənin ictimaiyyətinə çatdırmaq üçün, gücü çatan hər şeyi etmişdir. Vətənin ağır dövründə, doğma xalqıyla bir yerdə olmağı, torpaqlarımızın bütövlüyü uğrunda savaşlara qatılmağı hər şeydən üstün tutmuşdur. 1992-ci ildə işini Ana Vətənə dəyişmiş, birinci Qarabağ müharibəsində iştirak etmişdir. Hələ keçən əsrin son illərində - orta məktəb illərindən, Qəbələ tarixinə, onilliklər boyu “Qəbələ” qəzetinin keçdiyi şərəfli yola, bu bölgənin layiqli yetişdirmələri - alimlərə, dövlət xadimlərinə, əmək, təhsil fədailərinə dair üç kitabdan ibarət “İnsanlar: talelər, ziyalılar” adlı üç toplu, 2005-ci ildə isə “Qəbələ ziyalıları” kitabını nəşr etdirmişdir. Son 25 ilə yaxın zaman ərzində yaradıcılıq fəaliyyətinin tərkib hissəsi kimi, Rusiya bölgələrinə qatarla 40 dəfə yaradıcılıq səfəri edib, bu ölkənin 100 şəhərində axtarışlar, araşdırmalar aparmış, oradakı alim, yaradıcı şəxslər, dövlət qulluqçları, sadə peşə adamları, onların diaspor təşkilatları, diasporumuzun mətbuatı, ədəbiyyatı haqqında rus dilində 27 adda kitab yazıb nəşr etdirmişdir. Sonda bu topluları, tədqiq etdiyi materialları sistemləşdirmiş, rus dilində “Odlar Yurdunun övladları Rusiya tarixində” adlı ensiklopedik portret-oçerklər kitabının üç nəşrini oxucuların mühakiməsinə vermişdir. Topluların nüsxələrini Azərbaycanda və Rusiyada kitabxanalara, redaksiyalara, ayrı-ayrı ziyalılara, elm ocaqlarına özü hədiyyə etmişdir. Qeyd edək ki, müxtəlif elmi məcmuələrdə R.Məmmədovun “Mirzə Kazım bəy: elmi və pedaqoji fəaliyyətinin Kazan dövrü”, “Rusiyada Azərbaycan mühacirət ədəbiyyatı” kimi elmi əsərləri çap edilmişdir. 2018-ci ildə onun 440 səhifəlik “Rusiyada Azərbaycan mühacirət mətbuatı. Monoqrafiya” adlı elmi əsəri də çapdan çıxmışdır. Təqdirəlayiq haldır ki, kitabda araşdırılan 57 adda qəzet və jurnallar heç bir kitabxanada, arxivdə cəmləşdirilməmiş, müəllif özü, səfər etdiyi şəhərlərdə onları bircə-bircə toplamışdır. İndi tam əminliklə demək olar ki, Ramin Məmmədov, qismən də olsa, Rusiyadakı həmvətənlərimizin, onların diaspor təşkilatlarının, mətbuatının və ədəbiyyatının salnaməsini yarada bilmişdir. Bildirməyimiz yerinə düşər ki, “Azərbaycan”, “Xalq qəzeti”, “Respublika”, “Bakinskiy raboçiy”, “Vışka”, “Azad Azərbaycan” ”Şərq”, “525-ci qəzet”, “Mübariz keşikdə”, “Qəbələ”, “Qaradağ”, “Kredo” və onlarca başqa qəzetlərdə, onun bir neçə yüz məqaləsi dərc olunmuş, bu qəzetlərin səhifələrində yaradıcılıq fəaliyyətinə dair yüzdən artıq yazı yerləşdirilmiş, tele-radio verilişlərində çıxışları olsuşdur. Bu gün biz Ramin Məmmədovun yeni təəssürat-hekayələrini oxuculara təqdim edirik.

Əli Rza